**«Yunayted Kredit Bank» Açıq Səhmdar Cəmiyyətinin**
**İnformasiya Texnologiyaları komitəsi haqqında**
**Ə S A S N A M Ə**

## 1.Ümumi müddəalar

1.1.Bu Əsasnamə «Banklar haqqında», «Azərbaycan Respublikasının Milli Bankı haqqında» Azərbaycan Respublikası Qanunlarına,Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına, Azərbaycan Respublikası Milli Bankının İnformasiya Texnoloqiyaları Standartları haqqında təlimatına uyğun olaraq hazırlanmış və «Yunayted Kredit Bank»Açıq Səhmdar Cəmiyyətində İnformasiya Texnologiyaları Komitəsinin (bundan sonra «Komitə» adlanacaq ) fəaliyyətinin əsas prinsiplərini müəyyən edir.

## 2.Komitənin məqsədi

2.1.Bankın idarəetmə informasiya və digər avtomatlaşdırılmış sistemlərinin mükəmməl və fasiləsiz işini təmin etmək

## 3.Komitənin hüquq və vəzifələri

**3.2.Komitənin hüquqları aşağıdakılardan ibarətdir:**

3.2.1. informasiya texnologiyaları üzrə aşagıdakı sahələri əhatə edən prosedurlar hazırlamaq hüququ vardır:

3.2.2. informasiya texnologiyalarının tətbiqi;
3.2.3. informasiya təhlükəsizliyinin idarə edilməsi;

3.2.4. məlumatlara daxil olma hüququ ;

3.2.5. informasiya texnologiyaları vasitələrinin fiziki təhlükəsizliyi təmin edilməsini öz

3.2.6.İnformasiya texnologiyalarının tətbiq etmə üzrə nəzarət mexanizmlərini müəyyənləşdirmək;

3.2.7. Fövqəladə hallar və ehtiyat mərkəzinin yaradılması üzrə təkliflərini vermək;

3.2.8. İnformasiya prosedurları qaydalarını vaxtaşırı qiymətləndirmək və tələb olunduqda müasir tələblər səviyyəsində yeniləşdirmək;
3.2.9. Müşahidə Şurasının dəvəti ilə onun iclaslarında iştirak et mək;

**3.1. Komitənin əsas vəzifələri aşağıdakılardan ibarətdir:**

3.1.1. Bankın idarəetmə informasiya və digər avtomatlaşdırılmış sistemlərinin mükəmməl və fasiləsiz işini təmin etmək və monitorinqini aparmaq;

3.1.2.mühasibat uçotu və menecment informasiya sisteminin məlumatları üzrə adekvat ehtiyat nüsxələrinin (ehtiyat nümunələrinin) yaradılması üçün "Gözlənilməz hallar üzrə tədbirlər planının" işlənib hazırlanmasını təmin etmək;

3.1.3.İnformasiya texnoloqiyaları üzrə prosedur qaydalarını hazırlamaq ,İdarə Heyəti ilə razılaşdırdıqdan sonra təsdiq olunmaq üçün Müşahidə Şurasına təqdim etmək;

3.1.4. Mİuşahidə Şurasının qarşısında hesabat vermək.

## 4.Komitənin strukturu və idarə edilməsi

4.1. İnformasiya texnologiyaları komitəsi idarə Heyəti üzvlərindən və müvafiq struktur bölmələrin rəhbərlərindən təşkil olunur.
4.2.Komitəyə informasiya texnologiya sistemlərinin idarəedilməsi təcrübəsinə malik olan İdarə Heyətinin üzvü rəhbərlik edir.

4.3.Komitə 5 nəfərdən ibarət olmaqla,Müşahidə Şurası tərəfindən formalaşdırılır və ona hesabat verir;

4.4.İnformasiya texnologiyaları komitəsinin sədri informasiya texnologiyalarının səmərəli fəaliyyəti üçün məsulliyyət daşıyır.

4.5. İnformasiya texnologiyaları üzrə struktur bölmənin rəhbəri İnformasiya texnologiyaları komitəsinin rəhbərinə hesabat verir.

4.6.İnformasiya texnologiyaları üzrə bütün mühüm məsələlərə informasiya texnologiyaları komitəsi tərəfindən müsbət rəy verildikdə və həmin məsələlərə idarə Heyətinin razılığı olduqda Müşahidə Şurası bu məsələlər üzrə müvafiq qərar qəbul edir.

4.7. komitənin sədri Müşahidə Şurasına əvvəlcədən müvafiq məlumat vermədən hez bir kənar şəxsi bankın informasiya texnologiyaları sistemlərinə xidmət göstərməyə cəlb edə bilməz
4.8.Komitənin iclasları ayda 2 dəfədən az olmamaq şərtilə keçirilir və iclasın qəbul etdiyi qərarlar protokollarla rəsmiləşdirilir;
4.9.Komitənin iclaslarında kvorumun alınması üçün 4 üzvünün iştirakı vacibdir.Məsələlərin müzakirəsi zamanı aidiyyatı mütəxəssislər iclasa dəvət edilə bilər ,lakin səs vermədə iştirak edə bilməzlər;

4.10.Komitənin üzvləri onlara verilmş səlahiyyət daxilində qərarlar qəbul edir və oonların icrasına nəzarəti həyata keçirirlər;

## 5. Hesabat

5.1.Komitə Müşahidə Şurasının qarşısında hesabat verir

## 6.Yekun müddəalar

7.1.Bu Əsasnamə Müşahidə Şurası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir;

7.2.Əsasnaməyə əlavə və dəyişiliklər Müşahidə Şurasının razılığı ilə edilə bilər.